# Aprel döyüşləri: 44 günlük müharibədə qazanılan Zəfərə aparan yol

Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan Aprel döyüşlərindən doqquz il ötür. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

AZƏRTAC Aprel döyüşləri iştirakçıları ilə söhbət edib, döyüş təəssüratlarını öyrənib.





## Aprel döyüşləri zamanı xalqımızın birliyinin və ordumuzun gücünün şahidi olduq

Ehtiyatda olan polkovnik-leytenant Eldəniz Hüseynov 2016-cı il Aprel döyüşlərini 2020-ci il 44 günlük Vətən müharibəsində əldə olunan böyük Zəfərə gedən yol kimi qiymətləndirib: "Aprel döyüşləri son 22 ildə ordumuzun keçirdiyi ən böyük döyüş əməliyyatlarından biri idi ki, qələbə ilə yekunlaşdı və tarixə "Aprel döyüşləri" və ya "Dördgünlük müharibə" kimi düşdü. Bu döyüşlər zamanı biz xalqımızın birliyinin və ordumuzun gücünün, döyüş hazırlığının şahidi olduq. Aprel döyüşlərini 2020-ci ilin 44 günlük Vətən müharibəsində əldə olunan böyük Zəfərə gedən yol adlandırmaq olar".

E.Hüseynov bildirib ki, 2016-cı ilin Aprel döyüşləri Ermənistan silahlı qüvvələrinin təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq başlandı: "Düşmənin hücumlarının qarşısını aldıqdan sonra bölmələrimiz əks-hücuma keçdi. Tapqaraqoyunlu-Talış istiqamətində düşmənin ön xətti yarıldı, yaşayış məntəqələrimizi və bölmələrimizi atəş altında saxlayan yüksəklikləri azad etdik. Düşmən itirdiyi mövqeləri geri qaytarmaq üçün bütün qüvvələrini səfərbər etdi. Tank bölmələrini və artilleriya ehtiyatlarını döyüşə cəlb etdi. Lakin məqsədlərinə nail ola bilmədilər. Azad etdiyimiz yüksəkliklər Azərbaycan əsgərinin şücaəti sayəsində saxlanıldı".

## "Fəxr edirəm ki, Aprel döyüşlərinin iştirakçısıyam"

Növbəti həmsöhbətimiz Vüsal Abbasov Aprel döyüşləri zamanı Talış kəndi ətrafındakı yüksəkliklərin azad olunmasında az da olsa payı olduğu üçün fəxr etdiyini deyib: "2016-cı il aprelin 2-nə keçən gecə düşmənin hərbi təxribatının qarşısını almaq üçün əks-hücuma başladıq. Düşmənin artilleriya atəşinə baxmayaraq, müdafiə xəttini yardıq və Talış kəndi ətrafındakı yüksəklik nəzarətimizə keçdi. Ordumuzda, əsgərlərimizdə böyük ruh yüksəkliyi var idi. Daha sonra düşmən minaatanlarla bizi atəşə tutdu və mən yaralandım. İkinci qrup əliləm. Fəxr edirəm ki, Aprel döyüşlərinin iştirakçısıyam, torpaqlarımızın azad olunmasında az da olsa, mənim də payım var. Aprel döyüşləri nəticəsində üçrəngli bayrağımız Lələtəpə yüksəkliyində və Talış kəndi ətrafındakı yüksəkliklərdə ucaldıldı. Bu döyüşlərin davamı olan 2020-ci il 44 günlük müharibədə isə Şuşa, Xankəndi də daxil olmaqla bütün torpaqlarımız işğaldan azad olundu".

Azərbaycan.- 2025.- 4 aprel (№ 64).- S.7.